

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 42 (22.953)

*2 mart 2018-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib



***AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının sayca 77-ci məşğələsi Azərbaycan dilinin inkişafına həsr olunub.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra dilimizin keçdiyi tarixi inkişaf yoluna nəzər salıb.O, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi milli dil siyasətindən, dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəlməsindən danışıb. Bildirib ki, 1969-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasının 50 illik yubileyində Azərbaycan dilində çıxış edən ulu öndər dilimizin dövlət dili olması tələbi ilə məsələ qaldırıb və 1978-ci ildə Azərbaycan dili dövlət dili kimi Konstitusiyanın 73-cü maddəsində öz əksini tapıb.

Sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Heydər Əliyev irsində Azərbaycan dilinin inkişafı məsələləri" mövzusunda məruzə ilə çıxış edib. Vurğulayıb ki, ulu öndər 2001-ci il avqustun 9-da "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" mühüm bir Fərman imzalayıb. Həmin fərmana əsasən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Əbülfəz Quliyev ana dilinə qayğı siyasətini bu gün ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib. Qeyd edib ki, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü ildə imzaladığı Sərəncam ana dilimizin qorunmasına və inkişafına qayğının ən bariz nümunəsidir.

Alim bu siyasətin muxtar respublikamızda da uğurla davam etdirildiyini vurğulayaraq Naxçıvan Muxtar Respublikasında Dövlət Proqramının tətbiqi, dilimizin qorunub inkişaf etdirilməsi istiqamətində aparılan işlər, həyata keçirilən genişmiqyaslı tədbirlərin önəmindən danışıb. Əbülfəz Quliyev muxtar respublikada "Ana dili" abidəsi ucaldıldığını, tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin inkişafına da mühüm töhfə verən "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas"ı, "Kitabi-Dədə Qorqud" toponimləri" kimi əhəmiyyətli kitabların nəşr edildiyini deyib.

Məşğələyə akademik İsmayıl Hacıyev yekun vurub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## *"Naxçıvan türk-islam mədəniyyəti abidələri"* mövzusunda açıq dərs olub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Naxçıvan türk-islam mədəniyyəti abidələri" mövzusunda açıq dərs keçilib.***



Naxçıvan Dövlət Texniki Kollecinin bir qrup tələbəsinin iştirakı ilə keçilən dərsdə mərkəzin elmi katibi Emin Məmmədov bildirib ki, xilafətin yaranması ilə onun tərkibinə daxil olan müxtəlif xalqların mədəniyyətini özündə birləşdirən İslam mədəniyyəti formalaşıb. Naxçıvan da özünün əldə etdiyi mədəni-elmi nailiyyətlərlə birlikdə ümumislam mədəniyyət xəzinəsinə daxil olub.

Qeyd olunub ki, Azərbaycanda əldə edilən bütün mədəni nailiyyətlər yerli türk ənənələrini saxlamaqla, həm də islami mahiyyət kəsb edib. Bu zəmində ölkəmizdə, o cümlədən qədim diyarımızda çoxsaylı tarix-mədəniyyət abidələri yaradılıb. Onların bir qisminə sovet hakimiyyəti illərində biganə münasibət bəslənilib, hətta onların bəziləri qəsdən dağıdılıb.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin respublikada hakimiyyətə qayıdışından sonra xalqımızın mədəni irsinə münasibət dəyişilib. Belə ki, tarix-mədəniyyət abidələri, o cümlədən memarlıq nümunələri, geniş mənada ümumislam mədəniyyətinə aid olan bütün abidələr dövlət qayğısı ilə əhatə olunub.

Bildirilib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahədə çox böyük işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2005-ci il 6 dekabr tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvanda 1218 tarix-mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılıb. Bu abidələr əsasında "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq 2008-ci ildə Azərbaycan və ingilis dillərində nəşr etdirilib. Bununla yanaşı Ali Məclis Sədrinin diqqət və qayğısı ilə 70-ə qədər müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq əvvəlki görkəminə salınıb, onlara yeni həyat verilib. Bu sıraya daxil olan məscidlər, imamzadələr, xanəgahlar, türbələr və sair İslamla sıx əlaqədar olan abidələrdir. Bu iş indi də sistemli şəkildə uğurla davam etdirilməkdədir. Qeyd etmək kifayətdir ki, təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar kəndindəki imamzadədə bərpa işləri başa çatdırılıb. Babək rayonunun Nehrəm kəndində möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilib, Kəngərli rayonundakı XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndindəki hamamda bərpa işləri aparılır.

Tədbirin sonunda tələbələr Naxçıvanşünaslıq Mərkəzinin fondları və oxu zalı ilə tanış olublar.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbir

Naxçıvan Dövlət Texniki Kollecində 1 mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş "Gənclərin mülki müdafiə və fövqəladə hallara hazırlığı təhlükəsiz cəmiyyətin ümumi rifahıdır" mövzusunda tədbir təşkil olunub. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq belə tədbirlərin əhəmiyyətindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, polkovnik Emin Qasımov tələbələrə fövqəladə hallar zamanı davranış qaydaları ilə bağlı ətraflı məlumat verib, Ümumdünya Mülki Müdafiə Gününün yaranma tarixindən söhbət açıb. Təbii fəlakətlər və texnogen qəzaların təsnifatı, istehsalat qəzalarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, işçilərin təhlükəsizliyinin təmin edilməsində və maddi itkilərin qarşısının alınmasında mülki müdafiə tədbirlərinin əhəmiyyətindən danışıb.



Tədbirdə Naxçıvan Tibb Kollecinin müəllimi Maral Həsənova tələbələrə fövqəladə hallar zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları barədə məlumat verib.

Sonra kollecin tələbələri fövqəladə hallar zamanı davranış qaydalarını praktik şəkildə nümayiş etdiriblər.

✍ **Nail ƏSGƏROV**

***Culfa şəhərindəki 3 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Müəllimlər İnstitutunun təşkilatçılığı ilə Culfa və Ordubad rayonları Təhsil şöbələrinin tabeliyində fəaliyyət göstərən məktəblərin psixoloqları üçün "Məktəblərdə psixoloji xidmətin təşkili və qarşıda duran vəzifələr" mövzusunda elmi-praktik konfrans keçirilib.***

## Məktəblərdə psixoloji xidmətin təşkili və qarşıda duran vəzifələr müzakirə edilib



Konfransda geniş məruzə ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov deyib ki, təhsil insanın, ailənin, cəmiyyətin və dövlətin marağına, milli, ümumbəşəri dəyərlərə, dünyəvilik, inteqrativlik, demokratiklik prinsiplərinə əsaslanan şəxsiyyətin formalaşmasına, onun intellektual, sosial və fiziki inkişafına xidmət edir. Bunlar isə şagirdlərin yaş, fizioloji, psixoloji və fərdi xüsusiyyətlərinin nəzərə alınmasını zəruri edən amillərdəndir. Müasir dövrdə təhsilin inkişafı onun şəxsiyyətyönümlülük prinsipi əsasında qurulmasını tələb edir. Bu, psixoloji xidmət işinə artan tələbatın mühüm göstəricisidir.

Təhsil naziri xatırladıb ki, çağdaş dövrümüzdə Azərbaycan təhsil sistemində psixoloji xidmət işi mahiyyətcə yeni mərhələyə qədəm qoyub. Elə bu baxımdan muxtar respublikanın ümumtəhsil məktəblərində məktəb psixoloqlarının işinin təşkili vəziyyəti daim diqqət mərkəzində saxlanılır. Belə ki, bütün ümumtəhsil məktəblərində psixoloji xidmətin təşkili, psixoloqların fəaliyyəti üçün psixoloji kabinet yaradılıb. Eyni zamanda məktəblərin əksəriyyətində psixoloji xidmətin əsas istiqamətlərini əks etdirən psixoloji metodikalar dəsti, ədəbiyyatlar, elektron vəsaitlər mövcuddur.

Qeyd olunub ki, psixoloqlar uşaqların məktəbə psixoloji cəhətdən hazırlığını diaqnostika edərək, onların birinci sinfə qəbul prosesində yaxından iştirak etməlidirlər.

Bildirilib ki, məktəbdə psixoloji xidmətin tətbiqində başlıca məsələlərdən biri dərs cədvəli, proqram və metodik materiallar hazırlayarkən psixoloji biliklərdən kifayət qədər istifadə olunmasına diqqət yetirməkdir. Eyni zamanda psixoloqların dərslərdə vaxtaşırı iştirakı, dərsin psixoloji təhlili təlim-tərbiyə prosesində öz müsbət nəticəsini verir.

"Məktəbdə psixoloji xidmətin aktual problemləri" mövzusunda çıxış edən AMEA-nın müxbir üzvü, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, ümumtəhsil məktəblərinin vəzifəsi təhsil alanların ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarının formalaşmasını, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını təmin etməkdən və onları psixoloji baxımdan gələcəyin əsl vətəndaşı kimi hazırlamaqdan ibarətdir. Bu gün yetişməkdə olan nəslin inkişafını, tərbiyəsini düzgün təşkil etmək, sürətlə artan elmi-texniki yeniliklərin əsaslarını onlara mənimsətmək üçün uşaqların dərketmə imkanlarını, idrak proseslərinin inkişaf qanunauyğunluqlarını bilmək zəruridir.

Vurğulanıb ki, müasir dövrdə məktəbdə psixoloji xidmətin rolu olduqca əhatəlidir. Bu xidməti həyata keçirən məktəb psixoloqları sağlam psixoloji iqlimin formalaşmasına təsir göstərə biləcək qədər elmi biliklərə, praktik bacarıqlara yiyələnmiş mütəxəssis olmalıdırlar.

Qeyd olunub ki, psixoloqlar tədris materiallarını çətin mənimsəyən, sağlamlıq imkanları məhdud olan uşaqlarla və onların valideynləri ilə testlərlə işin düzgün təşkilində, yeniyetmələrin psixoloji hazırlanmasında mövcud metodik vəsaitlərdən istifadəyə geniş yer verməlidirlər. Məktəb psixoloqunun fəaliyyətində mühüm yerlərdən birini də yeniyetməlik dövrünə keçidlə bağlı şagirdin həyatında baş verən dəyişiklikləri öyrənmək, yeni mərhələ ilə bağlı onlara kömək etmək tutur.

Vurğulanıb ki, informasiya texnologiyalarının geniş vüsət aldığı bir dövrdə sagirdlərin sosial şəbəkələrdən istifadəsi onların məntiqi təfəkkür tərzini, yaradıcı və əməli düşünmə qabiliyyətlərini, həmçinin tələb olunan zəruri informasiyaları kompüter vasitəsilə ala bilmələri sahəsində bacarıq və vərdişlərini formalaşdırır. Sosial şəbəkələrdə şagirdlərin rolu bu gün çox aktual məsələdir. Psixoloqlar bu mövzuda diqqətli olmalı, şagirdləri istiqamətləndirərkən ehiyatlı davranmalı, onlara həmin texnologiyalardan səmərəli istifadə sahəsində vərdişlər aşılamalıdırlar.

Təhsil islahatının həyata keçirilməsində məktəb psixoloqlarının da üzərinə böyük və məsuliyyətli vəzifə düşdüyünü deyən Oruc Həsənli əsl vətəndaş yetişdirmək, cəmiyyətimizin gələcək qurucularını düzgün formalaşdırmaq məqsədilə qarşıda duran vəzifələrdən danışıb.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi Çapay Quliyevin "Məktəbdə psixoloji xidmətin tətbiqində profilaktika işlərinin təşkili", Ordubad Rayon Polis Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektoru, polis leytenantı Ülvi Həsənovun "Yeniyetmələrlə psixoloji işin təşkili", Culfa Rayon Polis Şöbəsi Əlincə Polis Bölməsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektoru, polis kapitanı Elxan Məhərrəmovun "Yeniyetmələrin psixoloji hazırlanması", Ordubad şəhərindəki internat tam orta məktəbin psixoloqu Nuridə Məmmədlinin "Praktik psixoloqun iş təcrübəsindən" mövzularında çıxışları dinlənilib.

Elmi-praktik konfransda məktəblərdə çalışan psixoloqların sualları ətraflı cavablandırılıb.

✍ **Muxtar MƏMMƏDOV**

## Azərbaycanın BMT ilə əlaqələri uğurla inkişaf edir

*1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan bu təşkilata üzv seçilib. Təşkilatın 181-ci üzvü olan Azərbaycanın üçrəngli dövlət bayrağı həmin gün Nyu-Yorkda qaldırılıb, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılıb. Bu, Azərbaycan xalqının müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi olaraq tanınması demək idi. Ümummilli liderimiz Heydər Əliyev BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdə bu məsələ ilə bağlı deyib:* ***"Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik".***

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin BMT ilə əlaqələrinin inkişaf etdirilməsinə, bu inkişafın fəal və ardıcıllıq prinsiplərə əsaslanmaqla sistemli xarakter almasına xüsusilə diqqət yetirib. Məhz bunun nəticəsidir ki, Azərbaycan dövləti nüfuzlu beynəlxalq təşkilatın bir çox xüsusi qurum və orqanları – BMT Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Mübarizə Komitəsi, BMT-nin İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO), Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatı ilə fəal əməkdaşlıq əlaqələri yaradıb.

Ulu öndərin səyi nəticəsində respublikamız bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edib. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə məhz ümummilli liderimiz 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırıb. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında və 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ulu öndərimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bəyan edib.



Ölkəmizin təşəbbüsləri nəticəsində BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını bir daha təsdiq edərək, işğalçı qüvvələrin ölkə ərazisindən dərhal çıxarılması tələblərini irəli sürüb. Təəssüf ki, məlum qətnamələrin müddəaları indiyə kimi yerinə yetirilməyib.

Respublikamızın BMT ilə münasibətlərinin təməlində ümummilli liderin müəyyənləşdirdiyi üç mühüm ümumi prinsip dayanır. Bunlar tərəfdaşlıq, davamlı sülh və təhlükəsizlikdir. Azərbaycanda hüquqi, demokratik və sülhpərvər dövlət quruculuğu kursunun davam etdirilməsi bu prinsiplərin möhkəmləndirilməsinə əsaslı zəmin yaradır. Dahi şəxsiyyətin böyük uzaqgörənliklə işləyib hazırladığı siyasi xətti uğurla davam etdirən, Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə, müstəqil siyasət yeritməklə milli maraqların ən yüksək səviyyədə qorunmasına nail olan ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan-BMT əlaqələrinə xüsusi diqqət yetirir. Son illər ölkə başçısı tərəfindən aparılan düzgün xarici siyasət nəticəsində respublikamız bu mötəbər qurumda söz sahibi olan dövlətə çevrilib. 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən cənab İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək islahatların vacib məsələyə çevrildiyini bəyan edib. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini vurğulayıb və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürüb. Bununla yanaşı, 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınıb. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilib.

2008-ci il martın 14-də BMT Baş Məclisinin geniş iclasında – 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" qətnamə layihəsinin müzakirəsini xüsusi xatırlamaq lazımdır. Həmin qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək verib, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib.

2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak edərək geniş nitq söyləyən Azərbaycan Prezidenti təşkilatın üzvlərinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldib. Dövlət başçısı Ermənistanın münaqişə zamanı çox ağır beynəlxalq cinayətlər törətdiyini, etnik təmizləmə siyasəti həyata keçirdiyini, işğal edilmiş Azərbaycan ərazilərində monoetnik mədəniyyətin yaradılmasına çalışdığını bildirib.

BMT Baş Assambleyasının ötən il sentyabrın 20-də Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında Prezident cənab İlham Əliyevin dərin məzmunlu və konstruktiv çıxışı xarici siyasət sahəsində dövlətimizin prinsipial mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdirib.

Beynəlxalq aləmdə nüfuz sahibi olan Azərbaycan Respublikası BMT ilə əlaqələrin inkişafında uğurlu nəticələr əldə edib. 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2011-ci ilin oktyabrında keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürən Azərbaycanın seçkilərdə 155 səs toplaması, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşməsi də bunu bir daha təsdiq edir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir.

Azərbaycan 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik edib. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olub. Ölkəmizin bu quruma hər iki sədrliyi müddətində, ümumilikdə, qurumun 59 açıq və qapalı iclası keçirilib, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilib.

Müstəqil Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı da daim bu beynəlxalq qurumun diqqətini cəlb edib. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə 150-dək layihəsi icra edilib.

2016-cı il martın 2-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat, 2017-ci il oktyabrın 10-12-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Furio de Angelis muxtar respublikaya səfər edib, Naxçıvan şəhərinin mədəniyyət müəssisələri, tarixi abidələri, istehsal sahələri ilə tanış olublar. 2016-cı il mayın 12-15-də isə Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı keçirilib. 2017-ci ilin oktyabrında isə Naxçıvan Biznes Mərkəzində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinin iştirakı ilə "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlim keçirilib.

*Göründüyü kimi, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin davam etdirilməsi nəticəsində Azərbaycanın BMT-yə üzvlüyü çoxşaxəli əməkdaşlığa çevrilib. Eyni zamanda Azərbaycan bu mötəbər beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verir.*

✍ **Rauf ƏLİYEV**

***Babək rayonunun Payız Kənd Mərkəzində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Məmmədova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***

## Sağlam ailə sağlam gələcəyin təminatıdır



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailələrdə qadınların ailə dəyərlərinin və sağlam həyat tərzinin aşılanmasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada ailələr həmişə uzunömürlü olması və möhkəmliliyi ilə seçilib. Qadın ailədə milli dəyərləri yaşadan, onu digər ailə üzvlərinə aşılayandır. Hər bir ailədə dünyaya gələn körpəni vətənpərvərlik ruhunda böyütmək, milli və mənəvi dəyərləri övladlarına aşılamaq qadının – ananın müqəddəs amalıdır. Azərbaycan qadını adını uca tutmaqla bütün insani keyfiyyətləri, dostluq, ülfət, məhəbbət və xeyirxahlıq kimi ali insani keyfiyyətləri övladlarına aşılamağı bacarmalıdır.

Vurğulanıb ki, ailədə sağlam həyat tərzinin formalaşmasında qadının rolu böyükdür. Ana yeni nəsli mövcud ictimai şəraitdə həyata hazırlamalı, ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün övladlarına zəruri olan bilik, bacarıq və vərdişləri mənimsətməlidir. Qadın ailəsinin tərbiyə verəni, əxlaq aşılayanı, övladlarına bütün milli dəyərləri öyrədəni olmaqla bərabər, həmçinin ailənin bütövlüyünü qoruyub saxlamaq missiyasını həyata keçirəndir. Faktdır ki, tərəflər lazımi tibbi müayinədən keçmədikdə bu nikahlardan çox zaman sağlamlıq imkanları məhdud uşaqlar dünyaya gəlir.

Ramilə Seyidova qeyd edib ki, muxtar respublika üzrə 1925 sağlamlıq imkanı məhdud uşaqlar vardır. Bu uşaqların 20 faizi Babək rayonunda yaşayır. Babək rayonu üzrə 26 min 853 uşaq vardır ki, onlardan da 376-sı sağlamlıq imkanı məhdud uşaqlardır.

Bütün bunlar onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflər sağlam həyat tərzi yaşamalı, nikaha daxil olarkən həkim müayinəsindən keçməli və sonrakı dövrdə qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva "Qadınlarda virus hepatitlərinin fəsadları və bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda çıxış edərək xəstəliklərin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda suallar cavablandırılıb, iştirakçılara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Avtonəqliyyat vasitələrinin tam sığortası dəymiş zərərin ödənilməsinə təminat verir

***Avtomobil nəqliyyat vasitələrindən rahatlıqla istifadə olunmasında sığortanın əhəmiyyəti böyükdür. Belə ki, sığorta olunmaq bu vasitələrdən istifadə zamanı bəzən qaçınılması mümkün olmayan bədbəxt hadisələrin vurduğu maddi zərərlərin əvəz olunmasında nəqliyyat sahibinin köməyinə gəlir. Çünki avtomobillərdən istifadə zamanı yaranan arzuedilməyən hadisələr həm avtomobil sahiblərinə, həm də digər üçüncü şəxslərə maddi zərərlər vurur.***

Ölkəmizdə mövcud olan qanuna əsasən belə bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün icbari, zərərvuran avtonəqliyyat vasitəsinin sahibinə dəymiş zərəri ödəmək üçün isə avtonəqliyyat vasitəsinin tam sığorta müqaviləsi bağlanılır. Avtomobilin hərəkəti zamanı başqasının avtomobilinə və həyatına vura biləcəyi zərərlə əlaqədar avtomobil sahibinin çıxılmaz vəziyyətə düşə biləcəyini nəzərə alaraq mülki məsuliyyətin sığortası hər kəs üçün icbari qaydada tətbiq olunur. Sığorta hadisəsi baş verdiyi zaman zərərvuran avtomobil sahibinin öz nəqliyyat vasitəsinə dəymiş zərər isə bu hadisəyə qədər avtonəqliyyatı tam sığorta müqaviləsi olduğu halda ödənilir. Ona görə də avtonəqliyyat vasitələri sahibləri təkcə mülki məsuliyyətlərini deyil, həm də avtomobillərini sığortalamalıdırlar. Çünki mülki məsuliyyətin sığortası ola biləcək qəza halında digər şəxslərin həyatına, sağlamlığına, mal və əmlakına vurduğu zərərlərin onun özü tərəfindən deyil, sığorta agentliyi tərəfindən ödənilməsini təmin edir. Tam sığorta və ya başqa adı ilə kasko sığortası isə avtomobil sahibinin sərxoşluğu və hadisənin qəsdən törədildiyi hallar istina olmaqla dəyə biləcək bütün zərərləri, hətta təbiət hadisələri və təsadüflər nəticəsində həmin avtomobilin sahibinə dəymiş zərərlərin ödənilməsinə təminat verir.

Avtomobil sahibinin istəyindən asılı olaraq avtonəqliyyat vasitəsinin tam sığortası tərəflər arasındakı razılaşma yolu ilə bağlanılmış müqavilə əsasında təmin edilir. Eyni zamanda tam sığorta avtomobil sahiblərini oğurluqdan, yol qəzalarından, yanğından, partlayışdan, təbii hadisələrdən, hətta avtomobil sahibinin təqsirli olub-olmamasından asılı olmayaraq əşyaların düşməsindən, atılmasından və sair risklərdən sığortalaya bilməyiniz üçün də tətbiq olunur. Ona görə də avtonəqliyyat vasitəsi sahibləri mülki məsuliyyətin icbari sığortası ilə yanaşı, həm də tam sığorta müqaviləsini bağlamaqla sığorta zəmanətlərindən faydalana bilərlər. Avtonəqliyyat vasitəsinin tam sığorta məbləğinə gəldikdə, bu, avtomobilin bazardakı dəyəri və sığortaçı ilə sığortaolunan arasındakı razılaşma əsasında həyata keçirilir.

Avtonəqliyyat vasitəsinin tam sığortası üzrə qəza halları baş verdikdə sığortaolunanın müraciəti əsasında qəza nəticəsində dəymiş zərərin tam məbləğdə, yəni müqavilə bağlanarkən müəyyənləşdirilmiş sığorta məbləği həddində ödənilir. Vətəndaşlar avtonəqliyyat vasitəsini tam sığorta etdirməklə bütün gözlənilməz hadisələrdən sığorta təminatı almış olurlar. Ona görə də avtonəqliyyat vasitələrinin tam sığortası hər bir avtonəqliyyat vasitəsi sahibi üçün zəruridir.

✍ **Əli CABBAROV**

# Naxçıvanda xalça istehsalı emalatxanasının yaradılması qədim el sənətinə yeni həyat verəcək



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixdə imzaladığı “Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncamı qədim el sənətinin daim yaşadıldığı Naxçıvanda bu sahənin daha da inkişafına, xalçaçılığın keçmişi ilə bu günü arasında möhkəm körpünün yaranmasına səbəb olacaqdır. Ölkə Prezidentinin məlum sərəncamı Naxçıvan ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır. “Şərq qapısı” qəzetinin redaksiyasında təşkil edilən dəyirmi masanın da əsas məqsədi illərin ağır sınaqlarından keçərək yaşadılmış və inkişaf etdirilmiş xalçaçılıq sənətinə muxtar respublikamızda göstərilən qayğı, bu xalq sənətinin Naxçıvanda yaşadılması, açılacaq xalça emalatxanası ilə bu sahəyə veriləcək yeni həyat barədə fikir mübadiləsi aparmaq idi.*

Dəyirmi masada AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin sektor müdiri Nəsimi Yusifov, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətlə bağlı müxtəlif növ çap məhsulları satış mərkəzinin direktoru, xalçaçı Züriyyə Musayeva iştirak ediblər.

***– Zəminə xanım, 1998-ci il Naxçıvanın ermənilər tərəfindən blokadaya salındığı ilk onilliyə – naxçıvanlıların həyatın ən çətin, ağır sınaqları ilə üz-üzə qaldıqları dövrə aiddir. Həmin vaxt nəinki muxtar respublikamızda, bütövlükdə, müstəqilliyini bir neçə il əvvəl əldə etmiş ölkəmizdə iqtisadiyyat tamamilə zəifləmiş, iflic vəziyyətə düşmüşdü. Belə bir zamanda Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması blokada Naxçıvanının nəinki bir qarış torpağının, milli dəyərlərinin bir parçasının belə, düşmənə verilməyəcəyinin təsdiqi oldu. Respublika Prezidentinin Naxçıvanda xalça istehsalı emalatxanasının yaradılması ilə bağlı məlum sərəncamını Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılmasının 20 illik yubileyinə hədiyyə də hesab etmək olar. Sizcə, bu sərəncamın icrası Naxçıvana nə verəcək?***

***Zəminə GÜLMƏMMƏDOVA:*** – Bəli, müstəqilliyimizin ilk illərində çətinliklərə baxmayaraq, Naxçıvan xalçaçılıq məktəbinin bərpa edilməsi, tədqiqi və təbliği, yaşadılması məqsədilə Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması bu sahəyə göstərilən böyük qayğının təzahürüdür. Muzeyin yaradılması o vaxta təsadüf edirdi ki, həmin dövrdə Naxçıvan xalçaları muxtar respublikadan çıxarılmağa başlanılmışdı. Namərd qüvvələr kəndlərimizdə keyfiyyəti aşağı, lakin görünüşü gözoxşayan üç xalça ilə bir kənd xalısını (gəbəsini) dəyişməklə asan yolla qazanc əldə etmək niyyətinə düşmüşdülər. Bu isə yolverilməz idi. Çünki həmin tarixi gəbələrimizlə mədəniyyətimiz, incəsənətimiz də gedə bilərdi. Belə bir vaxtda həmin xalçaları yaşadacaq bir ünvana ehtiyac var idi. Həmin ünvan 1998-ci ildə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyi oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan xalçalarına böyük dəyər verərək deyib: ***“Naxçıvan xalçaları sadəcə xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir”.***

Ali Məclisin Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı xalçaçılıq sənətinin də qorunmasına və inkişafına hərtərəfli şərait yaradıb.

Xalçaçılığın elmi əsaslarla inkişafını diqqətdə saxlayan, evlərdə olan xalça nümunələrinin təhvil verilməsi istiqamətində fəaliyyət göstərən muzeyin iş şəraitinin yaxşılaşdırılması məqsədilə 2010-cu ildə bu mədəniyyət müəssisəsi yeni bina ilə təmin olunub. “Azər-İlmə” Məhdud Məsuliyyətli Cəmiyyəti xalçaçılıq məktəbinin tədqiqi sahəsində Naxçıvan xalçaçılıq məktəbinə aid əldə etdiyi nadir xalçaları muzeyə hədiyyə edib. Bundan əlavə, nəfis tərtibatlı “Naxçıvan xalçaçıları” kitabı və “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalı çap etdirilib, “Naxçıvan xalçaları” sənədli filmi və Naxçıvan Dövlət Xalça Muzeyinin internet saytı hazırlanıb. Bütün bunlar Naxçıvan xalçaçılıq məktəbinin bərpası və yaşadılmasına çox qiymətli töhfələrdir.

Bu il bizim üçün çox əlamətdardır. Muzeyimizin 20 illik yubileyi qeyd olundu, akademik İsa Həbibbəylinin və professor Vidadi Muradovun birgə nəşr etdirdikləri “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik” adlı sanballı əsərin təqdimatı keçirildi.

Ölkə Prezidentinin xalçaçılığın inkişafı ilə bağlı məlum sərəncamı Naxçıvanda bu qədim sənət növünün yaşadılması ilə bağlı uzun illər aparılan böyük işlərə verilən qiymətdir. Sərəncamın icrası, ilk növbədə, milli dəyərlərimizin, qədim el sənətinin, bütövlükdə, mədəniyyətimizin qorunub yaşadılmasında və təbliğində mühüm rol oynayacaq, muxtar respublika iqtisadiyyatına xeyli gəlir gətirəcək.

***Asəf ORUCOV:*** – Həmçinin böyük inkişaf yolu ilə bütün MDB məkanında məşhurlaşmış regionumuzda istehsal olunan xalçalar dünya bazarına çıxarılmaqla Naxçıvanın daha geniş miqyasda tanınmasına səbəb olacaq. Ən başlıcası isə Naxçıvanın xalçaçılıq sənəti qədim ənənələri ilə müasir inkişafın yeni mərhələsinə qovuşacaq.

***– Asəf müəllim, Naxçıvan Yer kürəsində bəşəriyyətin beşiyi, həm də dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Bu torpağın çoxşaxəli mədəni irsində xalçaçılıq sənəti xüsusi yer tutur.***

***Asəf ORUCOV:*** – Naxçıvanın Kültəpə ərazisindən arxeoloq Osman Həbibullayev arxeoloji qazıntılar zamanı gildən düzəldilmiş toxuculuq alətləri – iy və cəhrə aşkar edib. Buradan, eləcə də gildən düzəldilmiş qabların içində qırmızı rəng tapılmışdır ki, boyaq otlarından alınan bu rənglərlə insanlar xalça iplərini boyayırmışlar. Həbibullayev Kültəpədə yaşayan qəbilələrin ilk dəfə primitiv xalça toxuduqlarının eramızdan əvvəl IV-III minilliyə aid olduğunu bildirir. Naxçıvan xalçalarının, ümumilikdə, özünəməxsus çalarları vardır. Bu elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Xovsuz xalça növündə atların, atlıların və dəvələrin, çullarla bəzədilmiş dəvə karvanının təsviri, xovlu xalçaların bəzəyinə çevrilən “buta” elementi Naxçıvan xalçalarını öz spesifik toxunuşu və bədii quruluşu ilə fərqləndirir. Araşdırmalar nəticəsində xalçaçılıq sənətinə daxil olan keçəçiliyin lap qədim dövrdə mövcud olduğunu qeyd etmək olar.

Naxçıvanda xalçatoxuma sənətinin qədim olmasına baxmayaraq, xalçaçılığın müstəqil sənət sahəsi kimi inkişafı orta əsrlər dövrünə təsadüf edir. XIV əsrdə yaşamış Həmdullah Qəzvini Naxçıvan sənətkarlarının çox yüksəkkeyfiyyətli xalça toxumaları barədə məlumat verir.

***– Muxtar respublikamızda həyata keçirilən “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” adlı sosial layihənin məqsədi insanların məşğulluğunun təmin edilməsi ilə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması olub. Bununla yanaşı, Naxçıvanda müxtəlif tədris müəssisələrində xalçaçılıq kurslarının fəaliyyət göstərməsi də mühüm əhəmiyyətə malikdir. Bu, xalça emalatxanası açılan zaman toxucularımızın yetərincə olması deməkdir.***

***Nəsimi YUSİFOV:*** – “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” adlı sosial layihə 2014-cü ildən həyata keçirilir. Layihənin icrası ilə əlaqədar sağlamlıq imkanları məhdud və evdar qadınlarla müqavilələr bağlanılıb, onlara lazımi avadanlıq və materiallar verilərək evlərdə xalça toxunuşu təşkil edilib. İndiyədək 28 sağlamlıq imkanı məhdud və evdar qadın bu layihəyə cəlb olunub, eni 80 santimetr, uzunluğu 1 metr 20 santimetr ölçüdə 53 xalça toxunub. Onu da qeyd edək ki, xalça toxunuşunu həyata keçirmək üçün lazım olan hana, ip və digər avadanlıqlar onlara əvəzsiz olaraq verilib. Ərsəyə gələn xalçalar Naxçıvan çeşniləri əsasında toxunub. Toxunmuş xalçaların əl işlərinin satışı mağazasında və muxtar respublikada təşkil olunan sərgilərdə satışı həyata keçirilib. Layihə çərçivəsində ötən illər xalça toxumaqla məşğul olan qadınlar həm də evlərində qızlarımıza, gəlinlərimizə bu sənətin sirlərini öyrədirlər.

Muxtar respublikamızda milli adət-ənənələrin qorunub yaşadılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə 8 kurs təşkil edilib və bu kursları 93 nəfər bitirib. Kursları bitirənlərdən “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” adlı sosial layihədə özünüməşğulluqları təmin edilənlər də var. Bəli, bütün bunlar deməyə əsas verir ki, xalça emalatxanası istifadəyə verilən zaman bu peşəyə yiyələnmiş hazır toxucularımız var.

***– Nə üçün məhz Naxçıvan xalçaları hələ qədim zamanlardan Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı nümunələri hesab edilir?***

***Asəf ORUCOV:*** – Yalnız bu bölgəyə məxsus və heç bir yerdə təkrarlanmayan xüsusiyyətləri ilə. Mənbələrdə qeyd olunur ki, Naxçıvan xalçalarında bir kvadratdesimetrdə, təxminən, 35x35 ilmə (düyün) yerləşir. Bir kvadratmetrdə isə 122 min ilməyə təsadüf edilir. Bu xalçalarda xovun hündürlüyü 6-8 millimetrdir. Bu özünəməxsusluq zaman-zaman xalçalarımızı bənzərsiz edib.




***Zəminə GÜLMƏMMƏDOVA:*** – Burada naxışlar da öz sözünü deyib. Naxçıvan xalçaları Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus rəng çalarları ilə zənginləşdirib. Həmçinin keyfiyyət amili də Naxçıvan xalçalarını fərqləndirən cəhətlərdəndir. Evlərimizdə əsrdən çox yaşı olan xalçalarımız var ki, neçə onilliklər istifadə olunmasına, dəfələrlə yuyulmasına baxmayaraq, hələ də şux rəngləri ilə göz oxşayır.

***– Bəlkə, elə buna görədir ki, xarici turistlər bizim xalçalarımıza daha çox maraq göstərirlər.***

***Zəminə GÜLMƏMMƏDOVA:*** – Bəli, dəfələrlə müşahidə eləmişəm ki, turistlər xalçalarımıza yaxınlaşıb əlləri ilə onun xovunu yoxlayır, naxışlarını, xüsusilə də rənglərini çox bəyəndiklərini deyirlər. Bizdən soruşurlar ki, belə xalçaları haradan almaq olar?

***Züriyyə MUSAYEVA:*** – Çalışdığım mərkəzə gələn turistlər xalçalarımıza heyran qalırlar. Onların rəngləri, naxışları, toxunması ilə bağlı suallar verirlər. Turistlərə xeyli xalça satmışıq. Onu da qeyd edim ki, aparmaq asan olsun deyə, onlar kiçikölçülü xalçalara daha çox üstünlük verirlər.

***– 1990-cı ilədək Naxçıvanda ailə quran hər qıza cehiz olaraq hökmən evlərimizdə toxunan xalça da verilir, bu xalçalar təzə gəlinlərin otaqlarının ən dəyərli əşyası hesab olunurdu. Sonralar isə bu xalçaların yerini mağazalarda satılan, başqa ölkələrin istehsalı olan xalçalar tutmağa başladı.***

***Asəf ORUCOV:*** – Bunun başlıca səbəbi 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərindən ölkəmizdə yaranan vəziyyətlə əlaqədar iqtisadiyyatımızın zəifləməsi, Naxçıvanın blokada şəraitinə salınması oldu, – desək, yanılmarıq. Muxtar respublika əhalisi olmazın çətinlikləri ilə üzləşdi. Elektrik enerjisinin, təbii qazın olmaması, çörək qıtlığı insanlarda mənəvi sarsıntı yaratmışdı. Belə bir dövrdə evdə xalça toxumağa kiminsə nə maddi vəziyyəti, nə də həyat tərzi imkan verirdi. Digər səbəb isə bu gün həyatımıza daxil olan yeni texnologiyalardır. O dövrlərdə xalça toxumaq əsas məşğuliyyətlərdən idi. Çünki indiki qədər televiziya kanalları, internet imkanları yox idi. İnternet insanların əsas vaxtını alandan sonra “o qədər əziyyət çəkincə, 200-250 manat ver, bazardan qəşəng bir xalça al” tendensiyası da ruhlara hakim kəsildi. İndi Naxçıvanda hər bir ailədə xalça toxuna bilər. Buna maddi imkanlarımız da yetərincə çatar. Təki həvəs olsun. Əgər övladlarımıza verdiyimiz “müasir” xalçalarla evdə toxunan xalçalarımızın keyfiyyət fərqini, bədii-estetik zövqümüzə uyğun olmamasını, sağlamlığa təsirini nəzərə alsaq, heç bir valideyn övladına həmin xalçalardan istifadə etməyi rəva bilməz. Sözsüz ki, Naxçıvanda xalça istehsalı emalatxanasının açılması ilə qızlarımızın cehizliklərini yenə də keyfiyyətli, gözoxşayan xalçalar bəzəyəcək.

***– Mənfur qonşumuz ermənilər xalq musiqilərimiz, milli çalğı alətlərimiz kimi, milli xalçalarımızı da özününküləşdirməyə çalışırlar. Düzdür, xalçalarımızın özünəməxsus naxış və elementləri, gözoxşayan rəng tonları onların Azərbaycana məxsusluğunun təsdiqidir. Ancaq gələcəkdə toxunacaq və xarici bazarlara çıxarılacaq xalçaların hansısa bir hissəsinə onun harada istehsal olunduğunu həkk etməklə bu cür düşmən xislətinin qarşısını almaq olmazmı?***

***Asəf ORUCOV:*** – Ermənilər haqsız olaraq nəinki xalçalarımıza, Azərbaycana məxsus bütün maddi-mədəniyyət nümunələrinə sahib çıxmağa çalışırlar. Qərb alimi Ulrik Şurman Qafqaz xalçalarına həsr etdiyi kitabında Azərbaycan xalçalarının tarixi və özünəməxsus xüsusiyyətləri “Qafqaz xalçaları” adı altında təqdim edir. Nəticədə, ayrıca bir ölkə kimi nə Azərbaycanın, nə də xalqın adı çəkilir. Erməni xalçalarından bəhs edildiyində Azərbaycan xalçalarından deyil, ayrı-ayrı coğrafi bölgələrdən (Qarabağ, Şirvan və sair) danışılır, bu bölgənin əhalisinin etnik tərkibi saxtalaşdırılır. Qafqaz xalçaları içərisində erməni xalçalarının rolu şişirdilir. “Əjdaha” motivindən danışılarkən qeyd edilir ki, bu ornamentlər İrandan iqtibas edilmiş və Qafqazda ermənilər tərəfindən yayılmışdır. Bundan əlavə, İen Bennetin Şərq xalçalarına həsr etdiyi kitabında Azərbaycan xalçaçılığının bəzi prinsipial məsələləri təhrif edilmişdir. Bir sıra motivlər erməni motivi kimi verilmişdir. Bütün bunlara görə tikiləcək emalatxanadakı xalça istehsalı bu qədim xalq sənəti nümunələrimizin milli mənsubiyyətini, əzəli şöhrətini də özünə qaytaracaq. Təklif edərdim ki, həmin xalçaların üzərində Haçadağ, Gəmiqaya abidəsi, Nuhun türbəsi, Möminə xatın məqbərəsi təsvir olunsun.

***Züriyyə MUSAYEVA:*** – Mən toxuduğum xalçaların hər birinin üzərində “Naxçıvan” yazıram. Yeni emalatxanada istehsal olunacaq xalçaların bir kənarında “Naxçıvan” sözünün yazılması, həmçinin toxunduğu ilin qeyd olunması elə bilirəm, xalçalarımızı gələcəkdə düşmən xislətindən qurtarmış olar.

***Nəsimi YUSİFOV:*** – Vaxtilə evlərimizdə toxunan xalçaların üzərinə toxunduğu il, şəhərin, kəndin adı, hətta onun ailənin hansı övladı üçün hazırlandığı da həkk olunardı. Bax bu cür xalçaları kim mənimsəyə bilərdi?

***– Dəyərli fikirlərinizə və gərəkli təkliflərinizə görə hər birinizə minnətdaram. Siz də razılaşarsınız ki, 28 illik blokada şəraitində böyük inkişaf yolu ilə tarixçilərin gələcəkdə tədqiqat və araşdırmalar obyektinə çevriləcək Naxçıvanda xalçaçılığın inkişafı muxtar respublikamızda ən qədim sənət növlərindən birinə yeni həyat verəcək. Blokada Naxçıvanında onlarla insan yeni iş yerləri ilə təmin olunacaq.***

**Hazırladı: Mətanət MƏMMƏDOVA**

Gənc istedadlar

# İncə sənətin zərif yolçusu



***Ölkəmizdə, eləcə də muxtar respublikada gənc istedadların aşkarlanması, onların yaradıcılıq potensialının düzgün formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Öz yaradıcılığı ilə digərlərindən fərqlənən gənclər mükafatlandırılır, onların fəaliyyəti üçün lazımi şərait yaradılır.***

Məsələn, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının “Qızıl kitab”ı təsis edilərək, öz yaradıcılıq qabiliyyəti ilə seçilən gənclərin adı bu kitaba salınıb, onlar üçün təqaüdlər təyin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 23 fevral tarixdə həmin təqaüdün məbləğinin artırılması ilə bağlı Sərəncam imzalaması isə muxtar respublikada gənc istedadlara göstərilən hərtərəfli dövlət qayğısının bariz nümunəsidir. Muxtar respublikada müxtəlif yaradıcılıq kursları, dərnəkləri də təşkil olunur ki, onlar burada təmənnasız şəkildə müxtəlif sənət sahələrinin sirlərini öyrənə bilirlər.

Həmin yaradıcılıq dərnəklərinin bir neçəsində görülən işlərlə tanış olmuşam. Bu dəfə isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil edilmiş dərnəkdə iştirak etmək qərarına gəldim. Çünki vaxtaşırı keçirilən sərgilərdə mərkəzə cəlb olunmuş şagirdlərin əl işləri ilə rastlaşmışdım. Həmin əl işlərinin, çəkilən rəsmlərin hazırlanma prosesində iştirak etməyin daha maraqlı olacağını düşündüm.

Rəsm məşğələsi keçirilən otaqda bir neçə nəfər ağ kağız üzərində nəsə cızma-qara edirdi. Necə deyərlər, hərə öz fantaziyasını işə salıb, xəyalındakını kağıza köçürməyə çalışırdı. Müəllim isə onlara məsləhətlər verirdi. Uşaqlarla tanış olduq. Mais, Hüseyn, Fəridə… Hə. Mən bu qızı televiziyadan tanıyıram. Verilişlərin birində mövzu ilə bağlı müsahibə vermişdi.

Rəsm dərsini aparan Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadıqovun dediyinə görə, Fəridə rəsm kursunun ən istedadlı və eyni zamanda da çalışqan üzvlərindən biridir. O, bu sənətə xüsusi həssaslıq və sevgi ilə yanaşır.

Fəridədən çəkdiyi rəsmləri göstərməyini xahiş edirik. O, səliqə ilə üst-üstə yığılmış kağızları bizə uzadır. Bu əsərlərdə müxtəlif təsvirlərlə rastlaşırıq. Güllər, məişət əşyaları, cizgi filmlərinin qəhrəmanları və sair. Onların arasında stəkan, çaynik natürmortları da var. Fəridənin qarşısındakı vərəqə çay süfrəsinin rəsmini çəkdiyini görüb zarafatla ona deyirəm:

– Deyəsən, çayla aran yaxşıdır, rəsmlərində onun təsvirinə çox yer verirsən.

– Hə, bir az elədir, – deyə gülə-gülə, utancaqlıqla cavab verir.

Asta-asta, ehtiyatla işləməyindən hiss olunur ki, o, müəlliminin də dediyi kimi rəssamlıq sənətinə həssaslıqla yanaşır. Deyir ki, daha çox natürmort, mənzərə, kompozisiya janrlarında əsərlər qələmə alır, plastilindən isə müxtəlif fiqurlar düzəldirlər. Lakin o, ən çox natürmort janrında rəsmlər çəkməyi xoşlayır. İş prosesində həm karandaş, həm də sulu boyadan istifadə edir. Rəsmləri isə müxtəlif müsabiqələrdə, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Əcəmi seyrəngahında, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda, eləcə də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunan sərgilərdə yer alıb. Müsabiqələrdə həmin rəsmlər diplom və fəxri fərmanlara layiq görülüb.

Fəridədən onda rəsm sənətinə marağın necə yarandığını soruşduq. Onun dediklərindən:

– Əvvəllər rəsmlə boş vaxtlarımda məşğul olurdum. O, mənim üçün, sadəcə, bir həvəs idi. Lakin indi belə deyil. Bir ildən artıqdır ki, buradakı rəsm dərnəyində keçilən dərslərdə iştirak edir və getdikcə özümdə irəliləyiş görürəm. Çünki burada bu sənətin incəliklərini professional şəkildə tədris edirlər. Demək olar ki, çəkilən hər cizgini, hər xətti düşünərək, nəyəsə əsaslanaraq edirik. Atam həmişə deyir ki, rəsm çəkə bilmək üçün insanda yaradıcılıq, fantaziya olmalıdır. Bir sənətkar yalnız o zaman sənət əsərləri yarada bilər ki, yaradıcılıq qabiliyyəti ilə təhsil bir-birini tamamlasın. Onun dediklərinin doğru olduğunu burada gördüm. Qərar verdim ki, əgər rəssam olmaq istəyirəmsə, bunu professional şəkildə etməliyəm. Ona görə də bu dərnəkdə başladığım rəsm təhsilini gələcəkdə ali təhsil ocağında davam etdirməyi düşünürəm.

Niyə də olmasın? İnsan istədikdən sonra bir çox şeyə sahib ola bilər. Əsas odur ki, qarşına məqsəd qoyasan və bu məqsədə çatmaq yolunda öz üzərində işləyəsən.

Fəridənin gələcəkdə uğur qazanacağına şübhə etmirik. Yaradılan şərait də buna geniş imkanlar açıb. Belə ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər görülür. Bu qəbildən olan uşaqların fiziki və əqli inkişafını, habelə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə onların məktəbəqədər təhsil müəssisələrinə cəlbi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” da bu istiqamətdə görülən işlərdən ən mühümüdür.

Təəssüf ki, bəzi insanlar nə etsəm də, alınmaz, bacarmaram, – deyə düşünür, ümidsizliyə qapılırlar. Həmin anda, tam da əlimizi ondan üzdüyümüzdə, istedadımız tutur ruhumuzun əlindən, “qalx, irəli getmək vaxtıdır”, – deyir. Bax o zaman sanki yenidən doğulur insan.

✍ **Fatma BABAYEVA**

## Naxçıvan şəhərini “Sirlər xəzinəsi” komandası təmsil edəcək



***Naxçıvan şəhərinin 2018-ci ildə Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən oxunması zəruri olan kitablarla bağlı yeniyetmələr arasında “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.***

Gənclər Mərkəzində keçirilən oyunun məqsədi Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsinin əhəmiyyətini qeyd etmək, yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq və oxunması zəruri olan kitabların onlar arasında mütaliəsinə nail olmaqdır.

Oyunda Naxçıvan şəhərində fəaliyyət göstərən tam orta ümumtəhsil məktəblərindən 8 komanda mübarizə aparıb. İki turdan ibarət oyunun hər turunda 12 sual səsləndirilib.

Sonda daha çox suala düzgün cavab verən Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin “Sirlər xəzinəsi” komandası qalib adını qazanıb. 6 nömrəli tam orta məktəbin “Oğuzlar” komandası ikinci, 5 nömrəli tam orta məktəbin “Dahi” komandası üçüncü olub.

İntellektual oyunda yer tutan komandalar mükafatlandırılıb.

Qeyd edək ki, noyabr ayında keçiriləcək muxtar respublika birinciliyində Naxçıvan şəhərini “Sirlər xəzinəsi” komandası təmsil edəcək.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 30 mart 2018-ci il tarixli açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 2880 kvadratmetr torpaq sahəsində yerləşən 3 girişli, 774,36 kvadratmetri ümumi, 774,36 kvadratmetri əsas sahədən ibarət qeyri-yaşayış binası (örtülü istixana) | Kəngərli rayonu, Yurdçu kəndi | 135 000 | 6 750 |
| 2. | 2516 kvadratmetr torpaq sahəsində yerləşən 4 girişli, 214,57 kvadratmetri ümumi, 199,98 kvadratmetri əsas, 14,59 kvadratmetri köməkçi sahədən ibarət soyuducu anbar | Kəngərli rayonu, Yurdçu kəndi | 33 000 | 1 650 |
| 3. | 3509 kvadratmetr torpaq sahəsində yerləşən 1056 kvadratmetri ümumi, 1056 kvadratmetri əsas sahədən ibarət qurğu (tərəvəz yetişdirmək üçün istixana) | Kəngərli rayonu, Yurdçu kəndi | 10 000 | 500 |
| 4. | 1300 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 9 500 | 475 |
| 5. | 1200 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 9 000 | 450 |
| 6. | 370 kvadratmetr torpaq sahəsində yerləşən binanın 4-cü girişinin zirzəmisində 25,97 kvadratmetri ümumi, 25,97 kvadratmetri əsas sahədən ibarət qeyri-yaşayış sahəsi (mağaza) | Kəngərli rayonu, Qıvraq qəsəbəsi, 1 nömrəli bina | 7 600 | 380 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faizi məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 27 mart 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 30 mart 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

İdman xəbərləri

## Tələbələr arasında yürüş keçirilib



***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yürüş üzrə muxtar respublika birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi birincilikdə 60-a yaxın idmançı mübarizə aparıb. Duzdağ Fizioterapiya Mərkəzi yolunda keçirilən yarışın əsas məqsədi muxtar respublikada hava və ekstremal idman növlərinin tanıdılması və inkişaf etdirilməsi, eyni zamanda gənclər arasında idmanı kütləvi hala gətirməkdən ibarət olub.

Yekun nəticəyə əsasən oğlanlar arasında qalib adını Əmrah Nağıyev qazanıb. Finiş xəttinə ikinci və üçüncü olaraq Səfər Tağıyev və Cavid Qasımov çatıblar.

Qızların mübarizəsində isə Gülayə Cəfərova hamıdan sürətli olduğunu sübut edib. Cansu Abbasova ikinci, Telli Abbasova üçüncü olublar.

Sonda qalib idmançılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib. Oğlanlardan Həsən Həsənli, Araz Kətanov və Nemət Hüseynov, qızlardan Dünya Əmrahlı, Könül Hüseynova və Sevgi Bayramova həvəsləndirici mükafata layiq görülüblər.

## Stend atıcılığı üzrə birinciliyin qalibləri müəyyənləşib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının təşkil etdiyi qadınlar arasında atıcılığın stend növü üzrə muxtar respublika birinciliyinə yekun vurulub.



Muxtar respublika Atıcılıq Mərkəzində 5 Mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş yarışda 30 idmançı mübarizə aparıb. Atıcılığın stend növünün təbliğ edilməsi və bu idman növü üzrə kütləviliyin artırılması, qadınların idmana cəlbi, onlar arasında döyüş qabiliyyətinin artırılması və müdafiə vərdişlərinin formalaşdırılması məqsədilə keçirilən birincilik gərginliyi ilə yadda qalıb. Reqlamentə əsasən hər iştirakçı 5 atış hüququndan istifadə edib.

Beş hədəfin hər birini dəqiq nişan alan Nuray Mahmudova birinciliyin qalibi olub. Leyla Bağırlı və Aysel Əliyeva isə müvafiq olaraq ikinci və üçüncü pillədə qərarlaşıblar.

Sonda fərqlənən iştirakçılar təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Fatma Babayeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 187